# VII. "QARABAĞDA QİYAMƏT"İN SONU

## 7. Hər igid bir sərt qaya

Yazıçı Ulduz Qasımın *"Qarabağda qiyamət"* romanının bir çox cəhətdən xüsusi əhəmiyyəti var. Əvvəla, müharibənin - yəni İkinci Qarabağ savaşının psixoloji xarakteristikasının verilməsində tədqiqatçılar üçün bu əsərin əsas mənbələrdən biri olacağı şübhəsizdir. Çünki müəllif əsərini hadisələrin xronikasını izləyərək ən müxtəlif şahidlərin yazıçı tədqiqatına cəlb olunaraq verdikləri ifadələr əsasında yazıb. Ona görə də göstərilən hadisələrin həqiqətə çox yaxın olmağına əsas var. İkinci bir məsələni də qeyd etmək yerinə düşər; əsərdə adları çəkilən əsgərlər və zabitlər, təminat işçiləri, tibb-sanitar bölməsinin üzvləri, həkimlər sənədli xronika əsasında yazıldığından tarixi şəxsiyyətlərdir. Bu ifadə bir qədər şişirdilmiş kimi görünməsin. Axı İkinci Qarabağ savaşının özü o qədər qlobal hadisədir ki, bu hadisənin iştirakçılarının hər birinin son nəticənin uğurla başa gəlməsində əvəzsiz xidmətləri var. Bir sözlə, bu xidmətlərin zərrələrdən bütövə çevrilməsi ilə Azərbaycan ordusunun əzəmətini görə bilirik. Nəhayət, bir məsələni də qeyd edərdim; qəhrəmanlığın varisliklə ötürülməsində adların ayrıca yeri var. Zaman keçdikcə həyat səhnəsinə çıxan yeni nəsillər özlərinə tanış olan adları oxuduqca mənəvi cəhətdən xüsusi hazırlığa malik olacaqlar. Onlar üçün bu adlar qürur qaynağı olaraq zaman-zaman mənəvi boy artımına təkan verəcək. Hadisələrin Murov savaşı səhnələri də oxucu üçün yaddaqalan cizgilərlə verilib.

Murov Vətən müharibəsinin əsas düyün nöqtələrindən biri idi. Təbii şərait son dərəcə sərt və keçilməzdir. Ermənilər 30 il ərzində bu yerlərdə kifayət qədər möhkəmlənmiş, sanki məğlubedilməzlik səngəri qurmuşdular. Ancaq onlar bilmirdilər ki, Azərbaycan əsgəri həmin 30 illik hazırlığı necə sürətlə dağıtmaq gücündədir. Müəllif yazır: *"Kapitan Xətai döyüşçülərlə hər gün möhkəmləndikləri yüksəkliyin əhəmiyyətindən danışırdı. Buranın qorunmasının Azərbaycan üçün nə qədər vacib olduğunu xatırladırdı. Hücumların ardı-arası kəsilmirdi. Müxtəlif silahlardan atılan atəşlər əsgərləri qorxutmurdu. Aparılan kəşfiyyat öz bəhrəsini verirdi, düşmənə vurulan zərbələr dəqiq və məhvedici olurdu. Qabilin, Orucun, Turalın gətirdikləri xəbərlər bölüyün işini yüngülləşdirirdi. Ən təhlükəli yüksəklik olmasına baxmayaraq, Azərbaycanın igid döyüşçüləri onu qoruyub saxlaya bilirdilər. Murov dağı yüksəkliyindən kəşfiyyata gedən əsgərlər yaxşı bilirdilər ki, geri qayıtmaya bilərlər. Hər tərəf hiyləgər düşmənlə əhatə olunmuşdu".* Bu kiçik parçadan əxz etdiyimiz məntiq bundan ibarətdir ki, Azərbaycan döyüşçüsü nə qədər cəsarətli olur-olsun, o, hər hansı bir savaşa hazırlıqsız atılmırdı. Əvvəlcə mövqelər öyrənilir, müəllifin dediyi kimi, kəşfiyyat vasitəsilə düşmənin hansı gücdə və hansı yerdə qərar tutduğunu özləri üçün aydınlaşdırırdılar. Şübhəsiz, erməni quldurlarını da maniken kimi gücsüz və qorxaq təsəvvür etmək sadəlövhlük olardı. Əlbəttə, biz onlara *"nizami ordu", "döyüşçü"* deyə bilmirik, çünki qəsbkardılar, başqalarının ərazisinə soxulublar və onlara elə gəlib ki, tutduqları əraziləri öz əllərində saxlaya biləcəklər. Müharibənin ən kəskin döyüş səhnələrinin Murovda açılan düyünləri həm də Azərbaycan əsgərinin torpaq sevgisini, vətənə bağlılıqlarını, nəyin naminə vuruşduqlarını da açıq göstərdi. Bax bu cəhətdən erməni quldurları ilə Azərbaycan döyüşçülərinin arasında əsaslı fərqlər vardı. Kəşfiyyata ilk göndərilən əsgərlər qabağa çıxır. Müəllif onları təqdim edir: *"İlk yoxlamaya gedən Sənan, Tural və Əlizaman oldu. Kapitan lazımi tapşırıqları verib onlara uğurlar arzuladı".* Azərbaycan əsgəri yaxşı bilir ki, kəşfiyyat həyat riskləri ilə çox bağlıdır. Kəşfiyyata gedən əsgər geriyə qayıda bilməyəcəyini də anlayır. Ancaq onun düşmənə zərbə vurmaq hissi həyat-ölüm riskləri ilə psixoloji savaşda çox üstündür. Əsərin ayrı-ayrı hissələrini oxuduqca biz Azərbaycanda hərb elminin artıq müəyyən səviyyəyə çatdığını da hiss edirik. Kəşfiyyata gedən əsgər harada, necə hərəkət etməyi, ən təhlükəli məqamlarda necə davranmağı, döyüşçü dostunu necə qorumağı, düşmənin sirlərini necə öyrənməyi, ətrafı necə müşahidə etməyi... bütün bunları zabitlərimiz hərbi məktəblərdə mənimsəyiblər. Əgər belə demək mümkünsə, hər bir Azərbaycan zabiti eyni zamanda hərbi məktəb missiyasını yerinə yetirir. Onlar da öz döyüşçülərini məhz hərbi akademiyada öyrəndikləri ilə silahlandırırlar. Əsərin bu yerində kəşfiyyata gedən Turalın, Sənanın, Əlizamanın qəhrəmanlıqları haqqında maraqlı səhifələr var. Hətta onlar düşmənin əhatəsinə düşəndə belə özlərini itirmirlər. Əlizamanın yaralanmasından sonra onu xilas edən Sənan, yaxud ermənilərin əlinə keçmiş Tural necə cəsarət və mərdlik göstərirlər. Bunlar heç vaxt unudulmayacaq müharibə səhnələri kimi hərbi akademiyalarda da yaddaşlara gələcək, yeni hərbiçilərimizə öyrədiləcək. Hətta Tural qoluna bağlanmış ipi ocaqda necə yandırır, ağrıya, yanmaya necə mərdliklə dözür və nəhayət, özünü azad edəndən sonra ətrafında sevinc, qələbə şadyanalığı edən sərxoş erməniləri onların öz silahları ilə məhv edir. Turalın Əlizamanı xilas etməsinin özü nadir hadisədir.

Nəysə. Biz Azərbaycan əsgərlərinin sanki yanındayıq. Onların təhlükə mərhələlərini keçməsini həyəcanla izləyirik. Və, əlbəttə, Azərbaycan əsgəri bu səhifələri oxuyan oxucunun inamını qırmır, onun ruhunu qanadlandırır. Əlbəttə, tapşırıqlar dəqiqliklə yerinə yetirilir. Azərbaycanın kəşfiyyatçı əsgərləri ölüm və həyat riskləri ilə qarşılaşaraq göstərdikləri şücaəti özlərinin əsgəri borcu bilirlər. Heç bunu qəhrəmanlıq da hesab etmirlər.

Madam ki, söhbət Murov döyüşlərindən gedir, burada bir məqama da işıq salmalıyam. Murov döyüşlərinin qəhrəmanlarından biri də mənim qapıbir qonşum polkovnik Zaur Zeynalovdur. Ümumiyyətlə, 44 günlük müharibənin hər gününü biz ardıcıllıqla izləyirdik. Çünki mənim də iki nəvəm Suqovuşan döyüşündə idi. Polkovnik Zaur Zeynalov isə öz xüsusi təyinatlıları ilə Murovu fəth etməkdə idi.

Mən Azərbaycan döyüşçüsünün, xüsusilə komandirinin xarakterindən kiçik bir epizodu yada salmaq istəyirəm. Döyüşün səngiyən, atəşlərin aram olduğu bəzi məqamlarda qısaca hal-əhval söhbəti də olub. Ancaq bir neçə kəlmədən ibarət. Ad çəkilmədən biz Zaur Zeynalovun səsini eşitmişik. Hər şey əladır, heç nədən nigaran qalmayın. Həmin anlarda mən onun həyat yoldaşının, oğlunun və qızının göstərdikləri təmkini, doğmalarının aydın və mərd səsini eşitmələrindən qürurlanmalarını da müşahidə etmişəm. Demək, Azərbaycan döyüşçüsü üçün ən xarakterik cəhətlərdən biri də ona inanan vətənin, ailənin mənəvi təminatıdır. Onu da qeyd edim ki, polkovnik Zaur Zeynalov Şuşanın fəth olunmasına rəhbərlik edən komandirlərdəndir.

300 spartalının əfsanəvi döyüşü Şuşa fatehlərinin cəsarətində təzədən üzə çıxdı. Komandir Zaur Zeynalov Vətən müharibəsi qəhrəmanı fəxri adına layiq görüldü. Prezidentin sərəncamı ilə çoxlu orden-medallarla təltif olundu. O indi Azərbaycan ordusunun general-mayoru kimi hərbi xidmətini davam etdirir.

Şəmşir və Əlfəddin Həziyevlər Cəbrayılın, Hadrutun işğaldan azad olunmasında göstərdikləri qəhrəmanlıqlara görə yüksək təltiflərə layiq görüldülər. Onu da deyim ki, bu qardaşlar bizim kəndimizdəndir, Xələflidəndir, çox yaxın qohumlarımdır. Əsərə adı düşməyən bu qəhrəmanların adlarını təsadüfi xatırlatmıram. Yəni demək istəyirəm ki, hələ biz nə qədər əsərlər yaratmalıyıq ki, qəhrəman Azərbaycan ordusunun yaratdığı mahiyyətində həqiqət dayanan böyük əfsanənin bütün səhifələrini yaza bilək. Bu səbəbdən Ulduz Qasıma minnətdarlıq borcumuzdur.

Ulduz Qasım *"Qarabağda qiyamət"* romanında müharibənin cəbhə boyu odlu-alovlu qövsünü dəqiq və aydınlıqla təsvir edir. Biz nə qədər Arazboyu səhnələri görürüksə, bir o qədər də Xocavəndi, Cəbrayılı, Füzulini görürük. Kəlbəcərə doğru hərəkəti müşahidə edirik. Şuşaya can atan Azərbaycan əsgərini görürük.

Burada bir məqama da diqqət vermək lazımdır. Romanda Suqovuşanla bağlı döyüş səhnələri də kifayət qədər hissiyatla təsvir olunub. İki qardaşla bağlı qəhrəmanlar haqqındakı epizodu oxumaq nə qədər göynəmli olsa da, vətən oğullarının ölümə qalib gələn hünərlərini görmək qəlbimizi qürurlandırır. Müəllif yazır: *"Suqovuşana çatanda Əmirxan öyrəndi ki, başqa bir bölüyün komandiri olan qardaşı Orxan da burdadır. Ondan bir gün əvvəl buraya gələn oğlan döyüş yoldaşlarına sevinə-sevinə deyirdi ki, yuxumda görürəm ki, şəhid olmuşam. Əmirxanın döyüşdüyü bölüyün oraya çatmasıyla döyüşlərin başlaması bir oldu. Yağı Suqovuşanı tərk etmək istəmirdi, buna görə də geri çəkilmək istəmirdi. Hər iki tərəfin xeyli itkilər verməsinə baxmayaraq, heç kimin uduzmaq niyyəti yox idi. Lakin qəhrəman Azərbaycan döyüşçüləri hər yerdə olduğu kimi, qələbəni əldən vermədilər. Verilən itkilərə baxmayaraq düşməni geri çəkilməyə məcbur etdilər. Qızğın döyüşlərin getdiyi zaman Əmirxan bir neçə əsgərlə artilleriya atəşinə düşdü. Orxan qardaşının öləcəyini görüb tez özünü onun üstünə atdı: "Sən ölmə, qardaş, qoy sənin əvəzinə, mənə dəysin bu mərmilər. Ananın ilk övladısan, dayana bilməz yoxluğuna". Yaralansa da, həmin gün şəhid olmadı Orxan. Səhərisi gün isə bayrağı Suqovuşanın ən uca binasının üzərinə sanca bildi. Verdikləri itkiyə dözə bilməyən mənfur düşmən igid döyüşçülərə pusqu qurdular. Qazanılan qələbədən iki gün sonra Suqovuşanın yaxınlığında hər iki qardaş şəhid oldu".* Kim soruşsa ki, Şuşada, Şərqi Zəngəzurda, Qarabağda və Suqovuşanda döyüşlər necə gedib, zənnimcə, bircə cavab var: Hər bir döyüş yerində Azərbaycan əsgərinin qanı ilə yazılmış səhifələri oxuyan hər kəs yaxşı biləcək ki, Qarabağ uğrunda savaş necə gedib. Nəvələrim Amur və Aralın Suqovuşan cəbhəsindəki vuruşları da qəlbimizdə yazılmış qürur kitabının ən yaxşı səhifələrindəndir.

İkinci Qarabağ müharibəsinin taleyüklü missiyalarından biri məhz Suqovuşanda həll olundu. Bu Azərbaycan ordusunun ilk qələbələrindəndir. Suqovuşan azad olunmuşdu, ancaq bütün 44 günlük müharibə boyu Suqovuşan cəbhəsində vuruşanlar düşmənin çox böyük qüvvəsini öz üzərinə çəkərək digər cəbhələrdə ordumuzun hərəkətini təmin etdilər. Mən Ulduz Qasımın *"Qarabağda qiyamət"* romanından Suqovuşanla bağlı hissələri oxuduqca mahiyyətə daha dərindən vara bildim.

Ermənilər özləri haqqında mif yaratmışdılar. Guya məğlubedilməzdilər. Hətta dünyada da belə təbliğat aparırdılar ki, Qarabağ məsələsi birdəfəlik həll olunub. Hətta Paşinyan Şuşada yallı gedərkən *"Qarabağ Ermənistandır"* deyib nöqtə qoymuşdu. Guya bu nöqtə məsələ üçün sonluqdur. Özü də onların düşüncəsinə görə uğurlu sonluqdur. Ancaq Ali Baş Komandan Azərbaycan ordusuna və onun ətrafında birləşmiş Azərbaycan xalqına güvənclə dedi ki, Qarabağ Azərbaycandır və sonu da nida ilə bitir. Yəni əgər düşmən bu hökmə etiraz eləsə, Qarabağda al qanına qərq olacaq. 44 günlük döyüşün xronikası göstərir ki, Ali Baş Komandan öz hökmündə doğrudur. Müharibənin ilk 10 günlüyündə artıq düşmən başa düşmüşdü ki, gücsüzdür. Minlərlə döyüşçüsünün cəsədlərini, yaralılarını, hərbi silah-sursatı ataraq döyüşdən qaçmalı oldu. Erməni faşistləri döyüşdə davam gətirə bilmirdilər. 10 mindən çox fərari döyüşdən yayınmış, qaçıb canını qurtarmağa çalışmışdı. Belə olan təqdirdə düşmən daha da quduzlaşmış, döyüş zonasından kənarda olan Azərbaycan şəhərlərini ən dəhşətli silahlardan atəşə tutmuşdur. Bu epizodlar da Ulduz Qasımın diqqətindən kənarda qalmır: *"Bu xalq, sanki, ilk dəfə idi ki, özünün kim olduğunu, hardan gəldiyini, köklərinin haralara söykəndiyini xatırlamışdı, yadına salmışdı. Hətta türk qardaşlarımız Qarabağımızı ikinci Çanaqqala adlandırırdılar. Fərəhdən insanın ürəyi köksünə sığmırdı. Hamı zaman bizim zamandı deyirdi. Gəncədə, Bərdədə, Tərtərdə ev-eşiyini, doğmasını, yaxınını itirənlərin hamısı "Bizi heç nə qorxutmur, təki vətən sağ olsun, torpaqlarımız yağıların əllərində qalmasın, cənnət Qarabağımız qayıtsın, otuz illik həsrət bitsin!" - deyirdi. İnsan bu sözləri eşidəndə özünü başqa aləmdə hiss edirdi, ulu öndər, rəhmətlik Heydər Əliyev demişkən, fəxr edirdi ki, azərbaycanlıdır. Düşünürdü ki, bu sözləri ancaq türk kökənli bir millət deyə bilər, yalnız türkün ürəyindən belə hisslər keçə bilər. Və heç bir güc onun torpağını əlindən ala bilməz".* Ulduz Qasımın bu epizoddakı müşahidələri gələcək tarix üçün də çox dəyərlidir. Dinc əhalinin yaşadığı şəhərlər bombardman olunurdu. Sakinlərin gözlərinin qabağında illər boyu tikib qurduqları evləri düşmən qəddarlığı ilə yerlə-yeksan edilir, alovlar göyə qalxırdı. Hətta Gəncədə uşaqlar, qocalar həlak olurdu. Bərdədə dinc sakinlər qanına qəltan edilirdi. Amma kimi dindirirdinsə, kimi danışdırırdınsa, ağlamırdı, sızlamırdı. Hər kəs qələbə əzmi ilə orduya mənəvi dayaq olmağa çalışırdı.

Bu müharibədə arxa cəbhənin orduya mənəvi dəstəyi sözün həqiqi mənasında tarixlərə yazılmalı bir fenomen idi. Çaxnaşma olmadı. Qorxu olmadı. Bərdə, Tərtər, Gəncə, Cocuq Mərcanlı, Tovuz, Qazax dəfələrlə mərmi atəşlərinə məruz qalsa da, həyat ritmini davam etdirdi. Ona görə də yəqin ki, gələcəkdə bu şəhərlərin yaddaşlarda qəhrəman şəhər statusları əbədiləşəcək.

Ulduz Qasımın *"Qarabağda qiyamət"* romanı nə qədər Azərbaycan ordusunu tərənnüm edirsə, bir o qədər də Azərbaycan xalqının mərdliyinə, qələbə istəyinə sevgi nəğmələridir.

Bəli, hər bir parçanı, hətta ən kədərli səhifələri belə nəğmə kimi oxumaq könüllərə xüsusi bir həzinlik bəxş edir. Ölməyən, əbədiyaşarlı qəhrəmanlıq belə tarixə qovuşurdu.

***24.10.2022***